Azərbaycan Milli Elmlər Akademiyası
NAXÇIVAN BÖLMƏSİ
ELEKTRON KİTABXANA



# Naxçıvan Muxtar Respublikası-100 il

Daycest

Azərbaycan Milli Elmlər Akademiyası
NAXÇIVAN BÖLMƏSİ
ELEKTRON KİTABXANA

# *Naxçıvan Muxtar Respublikası- 100 il*

Daycest

**Naxçıvan-2024**

**Tərtibçi - Məlahət Əhmədli**

**Redaktoru – Zeynəb Quliyeva (*Tarix üzrə fəlsəfə doktoru, dosent)***

**Naxçıvan Muxtar Respublikası-100 il: Daycest /tərt. ed. M.Əhmədli; red. Z.Quliyeva.– Naxçıvan, 2024, 22 s.**

**AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanası, 2024**

## Tərtibçidən

Daycest - (“digest”- ingilis dilindən tərcümədə “xülasə”, “toplu” mənasını verir) çap olunmuş dövri nəşrlər haqqında qısa xülasədən ibarət siyahı və ya çap kataloqu kimi də izah edilir. Daycestlərin hazırlanması müəyyən bir mövzu və ya kitabxanaçıları daha çox narahat edən hər hansı aktual məsələ ilə bağlı daha dərin və ətraflı tədqiqat aparmağa, müxtəlif mənbələrdə çap olunmuş materialların (əsasən dövri nəşrlərin) qısa xülasəsini əks etdirməklə onu geniş ictimaiyyətin diqqətinə çatdırmağa xidmət edir. Daycestdə məqalələr illər üzrə, əlifba ardıcıllığı ilə verilir.

Sizə təqdim etdiyimiz daycestdə AMEA Naxçıvan Bölməsi əməkdaşlarının və müxtəlif müəlliflərin Naxçıvan Muxtar Respublikasının yaradılması, keçdiyi tarixi yol, iqtisadi-siyasi həyatı, ədəbi mühiti, flora və fauna sistemi ilə bağlı dərc olunmuş kitab və məqalələri araşdırılmış qısa məzmunları verilmişdir.

**Ünvan:** AZ-7000 Naxçıvan şəhəri. Heydər Əliyev prospekti, 35.

**E-mail:** amea@nmr.az




Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğunu nəzərə alaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi geniş qeyd olunsun.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı tədbirlər planının hazırlanmasını və həyata keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 dekabr 2023-cü il.**

## 1994

***Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru  I cild / Fərzəliyev Təhmasib, Qasımlı Məhərrəm.- Bakı: Sabah, 1994.-388 s.***

Kitaba muxtar respublikanın ayrı-ayrı rayonlarından toplanmış şifahıi ədəbiyyat nümunələri daxil edilmişdir. Nümunələr həm arxaik, həm də ənənvi janrlar üzrə on səkkiz bölmədə qruplaşdırılmışdır. Kitabda Naxçıvanın folklor atlası, rus və ingilis dilində xülasələr verilmişdir.

## 1998

***Dünyanın bəzəyi – Naxçıvan / Mahmudzadə Maqsud.-Bakı, Nicat, 1998.- 176  s.***

Kitab Naxçıvanın bütün dünyada məşhur olan tarix-mədəniyyət abidələrindən, bu torpaqda boya-başa çatmış böyük elm, sənət, mədəniyyət və hərbi xadimlərdən bəhs edir.

## 1999

***Naxçıvan Muxtar Respublikasının coğrafiyası /Babayev Səfərəli./Bakı: Elm, 1999.- 226  s.***

Kitabda Naxçıvan Muxtar Respublikasının fiziki coğrafiyasının öyrənilməsinə, ərazisinə, sərhədlərinə, coğrafi mövqeyinə, təbii şəraitinə, onun ayrı-ayrı komponentlərinə, landşaftına, təbii sərvətlərinə, onlardan istifadə məsələlərinə, təbiətinin mühafizəsi vəziyyətinə dair ətraflı məlumat verilir.

## 2005

***Naxçıvanı öyrənən elmi cəmiyyət / Xəlilov Fərman.- Bakı: Nurlan, 2005.- 196 s.***

Kitabda Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti Naxçıvan Şöbəsinin 1925-1928-ci illərdə fəaliyyətini əks etdirən 41 protokolun tam mətni, faksimilesi və bu cəmiyyətlə əlaqədar olan bəzi arxiv sənədləri və mətbuat materiallar ilk dəfə olaraq toplu şəklində təqdim olunur.

## 2006

***Hacıyev, İ. Naxçıvan Muxtar Respublikasında törədilən siyasi repressiyalar/İsmayıl Hacıyev//AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2006, № 2, s.7- 12.***

Məqalədə ötən əsrin 20-30-cu illərində Naxçıvan Muxtar Respublikasında hökm sürən repressiya prosesləri, onların ağır nəticələri və baş verən faciələr təsvir edilmişdir. Müəllif arxiv materiallarına, müxtəlif faktlara əsaslanaraq keçmiş Sovetlər İttifaqında, həmçinin Azərbaycanda, o cümlədən də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında hakimiyyət –güc orqanları və bu orqanlara soxulmuş ermənilərin ən qəddar üsullardan istifadə edərək azərbaycanlıları güləlləmələri, həbs və sürgün etmələri, hüquqlarından məhrum etmələri haqqında məlumatlar vermişdir. Bütün bunların naxçıvanlıların həyatına, fəaliyyətinə, mənəviyyatına pis təsir göstərməsi məqalədə geniş işıqlandırılmışdır.

***

***2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf / Naxçıvan Muxtar Respublikası Ali Məclisi.-Naxçıvan Əcəmi NPB, 2006.- 261 s.***

Kitabda Naxçıvan Muxtar Respublikanın sənaye və kənd təsərrüfatı məhsullarının, rabitə xidmətlərinin həcmi və s. haqqında məlumatlar verilmişdir.

***

***Naxçıvan Muxtar Respublikasının Qırmızı kitabı I cild (onurğalı heyvanlar üzrə) I cild/Talıbov Tariyel.- Naxçıvan Əcəmi NPB, 2006.- 211 s.***

Kitabda ərazidə yayılan onurğalı heyvanların mövcud növ tərkibi, qorunma statusuna malik olan növlərin xüsusiyyətləri və mühafizə yolları plan əsasında verilmişdir. Ayrılıqda hər bir növü tanıtmaq məqsədi ilə onun rəngli şəkli və başlıca yayılma zonalarında kiçildilmiş əksləri göstərilmişdir.

## 2007

***Mustafa Kamal Atatürk və Naxçıvan/ Hacıyev İsmayıl, Həbibbəyli İsa.- Bakı Nurlan, 2007.- 56 s.***

Kitabda görkəmli dövlət xadimi Mustafa Kamal Atatürkün Naxçıvan haqqında düşüncələrindən, Naxçıvan erməni işğalından qorunub saxlanılmasında və regiona muxtariyyət statusunun verilməsindəki rolundan, böyük şəxsiyyətin xatirəsinin əbədiləşdirilməsindən bəhs olunur.

## 2008

***Naxçıvan ədəbi mühiti /Axundov Akif, Vəliyev Sevindik.- Bakı Nurlan, 2008.- 216 s.***

Kitabda ta qədim dövrdən başlayaraq müasir dövrümüzə qədər Naxçıvanda yaşayan, yazıb-yaradan şair və yazıçıların həyatından,

yaradıcılığından bəhs edilir, onların şeirlərindən nümunələr verilir, yazılan əsərlərə dövri mətbuatda verilmiş qiymətdən danışılır.

***

***Hacıyev İ. Naxçıvanın itirilmiş torpaqları və Naxçıvanla bağlı bir xəritə/İsmayıl Hacıyev//AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2008, № 1.- s. 30-36.***

Məqalədə Naxçıvanın bəzi torpaqlarının erməni daşnakları tərəfindən zəbt edilməsini aşkar edən xəritədən bəhs edilir. Qeyd edilir ki, 1924-cü ildə rus kartoqrafı N.Rıbakovun tərtib etdiyi xəritə obyektivliyi ilə fərqlənir. Materialların diqqətlə araşdırılması nəticəsində müəyyən edilmişdir ki, XX əsrdə erməni daşnaklarının Naxçıvanın bir neçə hissəsini ələ keçirməsi ilə Ermənistan Qars müqaviləsinin bəzi müddəalarını kobud şəkildə pozmuşdur.

## 2009

***Məmmədov M. Naxçıvan mətbuatının yaranma tarixinə dair bəzi mülahizələr (1920-1940-cı illər)/Məmməd Məmmədov//AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2009, № 1.-s.22-28.***

Məqalədə Naxçıvan mətbuatının yaradılması məsələlərindən bəhs edilmiş və iyirmiillik inkişaf yolu araşdırılmışdır.

## 2010

***Naxçıvan /Azərbaycan Respublikası.- Naxçıvan Əcəmi NPB, 2010.- 64 s.***

Bu albomda Naxçıvan rəssamlarının əl işləri verilmişdir.

***

***İntibahın 15 ili / Həbibbəyli İsa, Hacıyev İsmayıl, İsmayılov Bəxtiyar.- Naxçıvan Əcəmi NPB, 2010.- 280 s.***

1995-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, iqtisadi, sosial-mədəni həyatında baş vermiş yeniliklərdən, ictimai həyatın bütün sahələrində reallaşdırılan islahatların səmərəli nəticələrindən bəhs edən kitaba həyata keçirilmiş möhtəşəm quruculuq işlərini əks etdirən fotoşəkillər də əlavə olunmuşdur.

***

***Naxçıvan Muxtar Respublikasının Qırmızı kitabı II cild ((ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər) II cild/ Talıbov Tariyel, İbrahimov Əliyar- Naxçıvan Əcəmi NPB, 2010.-678 s.***

Bu kitab nadir növlərin müasir vəziyyətinin müəyyənləşdirilməsindən başqa həm də bitkiliyin elmi əsaslarla öyrənilməsi, səmərəli və davamlı istifadə olunması, qorunub saxlanmasında da mühüm əhəmiyyətə malikdir. Xüsusi statusları olan növlər müəlliflər tərəfindən təbiətdə çəkilmiş orjinal şəkillərlə təqdim olunmuş, sxematik xəritələrdə isə növlərin yayıldığı ərazilər göstərilmişdir.

## 2011

***Naxçıvan 5000/Seyidov Abbas ./Bakı Qismət, 2011.-240 s.***

Kitabda Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən olan, yarandığı gündən Cənubi Qafqazla Ön Asiya arasında körpü rolu oynayan, ilkin şəhər mədəniyyətinin formalaşdığı ocaq kimi fəaliyyət göstərən qədim türk tayfalarının əzəl yurdu Naxçıvan şəhərinin beş min il yaşının olması haqqında əsaslı elmi fikirlər söylənilir.

## 2012

***Naxçıvan mətbəxi /Azərbaycan Respublikası.- Naxçıvan Əcəmi NPB, 2012.- 356 s.***

Kitabda Naxçıvan Muxtar Respublikasında bitən meyvələr, yabanı bitkilər, ədviyyatlar, salatlar, içkilər, mineral sular, şirniyyatlar, turşular, mətbəxdə istifadə edilən qədim qablar və avadanlıqlar haqqında məlumatlar qeyd olunmuşdur.

***

***Hacıyev İ. “Naxçıvan sancağının müfəssəl dəftəri” Naxçıvan tarixinin öyrənilməsinin mühüm mənbəyi kimi/İsmayıl Hacıyev//AMEA Naxçıvan Bölməsinin “Xəbərlər”i, 2012, № 1.-s.11-19.***

Məqalədə XVI əsrin sonu və XVIII əsrin əvvəllərində Osmanlı İmperiyasının tərkibində olmuş və bununla əlaqədar osmanlılar tərəfindən “Naxçıvan sancağı” adlandırılan Naxçıvan diyarının ərazisi, yaşayış məntəqələri, əhalisi haqqında müfəssəl məlumat verilir, “Müfəssəl dəftər”də verilən məlumatların Naxçıvan tarixi üçün əhəmiyyəti göstərilir. Əhalinin siyahıya alınması, məşğuliyyəti, təsərrüfat həyatı, toplanan vergilər və onların növləri təhlil edilir. Aydın olur ki, “Müfəssəl dəftər” əhalidən vergiləri sistemli şəkildə yığmağa yönəldilsə də, burada Naxçıvanın XVI və XVIII əsr tarixini, tarixi coğrafiyasını və onlarla digər sahələrini öyrənmək, erməni iddialarına obyektiv və tutarlı cavab vermək üçün materiallar yer alır.

## 2013

***Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan/ Mustafayev Abdulla.- Bakı ADPU nəşriyyatı, 2013 .- 194 s.***

Monoqrafiyada XX əsr boyu Qərbi Azərbaycan və Naxçıvan ərazisində ermənilərin aborigen əhali olan azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım və deportasiya siyasəti, Azərbaycanlı qaçqınların Naxçıvana gəlmələri

və onlara hərtərəfli kömək göstərilməsi arxiv materialları əsasında araşdırılmışdır.

## 2014

***Naxçıvan tarixi II cild/AMEA Naxçıvan Bölməsi- Naxçıvan Əcəmi NPB, 2014.- 528 s.***

Üçcildlik Naxçıvan tarixinin II cildi XVIII əsrin ortalarından başlayaraq XX əsrin 30-cu illərinin sonunadək olan iki əsrlik bir dövrü əhatə edir. Kitabda yeni mənbələr, arxiv sənədləri, tədqiqat əsərləri, dövri mətbuat materialları əsasında Naxçıvan xanlığının tarixi, Naxçıvanın çar Rusiyasına ilhaqından sonra bölgədə yaranmış vəziyyət, XX əsrin əvvəllərində ermənilərin törətdikləri soyqırımlar, Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvanla əlaqələri, Araz-Türk Respublikasının ərazinin qorunub saxlanılmasındakı rolu, Naxçıvanın muxtariyyət statusu alması, Naxçıvan MSSR-in təşkili, XX əsrin 20-30-cu illərinin ictimai-siyasi hadisələri işıqlandırılmışdır.

***

***Hacıyev, İ.Naxçıvan Muxtar Respublikası: İnkişafdan intibaha/İsmayıl Hacıyev//AMEA Naxçıvan Bölməsnin "Xəbərlər"i, 2014, № 3.- s.9-25.***

Məqalədə Naxçıvan Muxtar Respublikasının müstəqillik illərində ictimai-siyasi həyatından, sosial-iqtisadi və mədəni inkişafından bəhs edilmişdir. XX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində Naxçıvanda baş verən hadsələr, Ulu öndər Heydər Əliyevin Naxçıvana gəlməsi, Muxtar Respublikanın Ali Məclisinə Sədr seçilməsi və həyata keçirdiyi tədbirlər araşdırılır. Həmçinin Ümummilli lider Heydər Əliyevin Naxçıvanı blokadadan çıxarması istiqamətindəki fəaliyyəti, qonşu ölkələrlə yaratdığı əlaqələr və Naxçıvanı xilas etməsi öz əksini tapmışdır. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişaf sahəsində əldə etdiyi çox böyük uğurlar "Naxçıvan möcüzəsi" kimi xarakterizə edilmişdir.

***

***Arpaçay vadisinin tunc dövrü arxeoloji abidələri /Quliyeva Zeynəb.-Bakı, Elm və təhsil, 2014.-192 s.***

Monoqrafiya Şərqi Arpaçayın Naxçıvan MR ərazisinə daxil olan vadisində yerləşən Tunc dövrü abidələrinə həsr olunmuşdur. Əsərdə arxeoloji qazıntılar zamanı Arpaçay abidələrindən aşkar edilən materiallar və muzey fondlarında saxlanılan maddi mədəniyyət nümunələrinin bir qisminin müqayisəli təhlili verilmiş, onların qrafik təsviri və fotoşəkillərindən ibarət albom, həmçinin Şərur rayonunun arxeo-coğrafi xəritəsi əks olunmuşdur.

***

***Səfərli H. Naxçıvanın blokadası Zəngəzurun Ermənistana verilməsi ilə başlandı./H.Səfərli//"Şərq qapısı" qəzeti.-2014.-4 iyul.- s. 2.***

Məqalədə qədim Azərbaycan torpağı olan Zəngəzur mahalının böyük bir hissəsinin ermənilər tərəfindən 1918-ci ildən başlayaraq işğal edilməsi, XX əsrin əvvəllərindən Naxçıvanın blokada şəraitində yaşaması və bu bölgəyə muxtariyyət statusunun verilməsi zərurətindən bəhs edilmişdir.

***

***Talıbov T., Nəsirova Ə. Naxçivan Muxtar Respublikasi florasinda campanula l. cinsinə daxil olan növlərin yayilma zonalari./Tariyel Talıbov, Əfruz Nəsirova//AMEA Naxçıvan Bölməsi "Xəbərlər"i, 2014, № 2.- s.47-56.***

Məqalədə 2012-2013-cü illərdə Naxçıvan Muxtar Respublikasının bütün rayon ərazilərindən Campanulaceae fəsiləsinə aid toplanmış bitki nümunələrindən, həmçinin AMEA Botanika və Bioresurslar İnstitutlarındakı herbari nümunələrinin araşdırılmasından və 11 növün yayılma zonalarının müəyyənləşdirilməsindən bəhs edilmişdir. Həmçinin Campanula coriaceae P.H. Davis., Campanula propinqua Fisch. & C. A. Mey., Campanula stevenii Bieb. geniş yayılma əraziləri olan növlərdir ki, bunlara da Muxtar Respublikanın 5 rayon ərazisində rastlanmışdır. Campanula glomerata L. 4 rayonda, Campanula latifolia L., Campanula rapunculoides L., C. bononiensis L., Campanula armena

Stev., Campanula karakuschensis Grossh. 3 rayonda, Campanula tridentata Scherb., Campanula bayerniana Rupr. 2 rayonda rastlanmışdır.

## 2015

***Quliyeva Z. Muxtariyyət dövründə Naxçıvanda yaradılan muzeylər /Zeynəb Quliyeva //Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası, 2015.- s.300-305.***

Məqalədə Naxçıvana muxtariyyət statusu verildikdən sonra özündə minlərlə dəyərli və tarixi əhəmiyyətli eksponatlar saxlayan Naxçıvan dövlət muzeylərinin yaradılmasından bəhs edilmişdir. Qeyd edilir ki maddi və mənəvi mədəniyyətimizin qızıl fondu missiyasını özündə ehtiva edən muzeylər milli dəyərlərimizin qorunmasında və təbliğində mühüm əhəmiyyət kəsb edir.

***

***"Türklər" kitabından Naxçıvana dair seçmələr / Naxçıvan Muxtar Respublikası.- Naxçıvan Əcəmi NPB, 2015.- s. 96 .***

İyirmi bir cildlik "Türklər" kitabı türk dünyası haqqında dolğun məlumatlar verən əsərdir. Kitab Yeni Türkiyə Araşdırma və Yayın Mərkəzi tərəfindən hazırlanmış və 2002-ci ildə Ankarada nəşr olunmuşdur. Kitabda Azərbaycandan, eləcə də Naxçıvan MR-dən olan tədqiqatçıların da elmi məqalələri yer almışdır. Naxçıvan haqqında, Naxçıvan türk memarlığı, Naxçıvanda daşdan düzəldilmiş qoç və qoyun heykəlləri, Sultan I Süleymanın Naxçıvan səfəri (1553-1555), Naxçıvan xanlığı kimi məqalələr topluda dərc edilmişdir.

***

***Naxçıvan 1924-2014 /(Müəllifi yoxdur).-Naxçıvan Əcəmi NPB , 2015.-264 s.***

Fotoalbomda 1924-2014-cü illər ərzində Naxçıvan Muxtar Respublikasının in ictimai və sosial həyatınında baş vermiş müxtəlif hadisələri əks etdirən fotoşəkillər toplanmışdır.

***

***Şirəliyev A. Naxçıvan Muxtar Respublikasinda yeyinti sənayesinin sürətli inkişafi və səmərəliliyi/Asif Şirəliyev//AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2015, № 1.-s. 230-236 .***

Məqalədə sənaye, o cümlədən yeyinti sənayesi və müəssisələrinin mahiyyəti və rolu açılıb göstərilir, onların növləri aydınlaşdırılır. Zəruri faktlar əsasında Naxçıvan regionunda bu sənayenin mövcud vəziyyəti təhlil olunur. Sənayenin inkişafının və səmərəliliyinin yüksəlişi barədə müəllifin bəzi tövsiyə və təklifləri verilir.

## 2016

***Kəlbizadə E. Muxtariyyətin əldə olunmasinda naxçıvanlı diplomatların fəaliyyəti/Elnur Kəlbizadə//AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2016, № 3.-s. 127-138.***

Naxçıvanın muxtariyyətini əldə etməsi XX əsrin əvvəllərində baş vermiş tarixi-siyasi proseslərin və yaranmış beynəlxalq şəraitin məntiqi nəticəsi olmaqla yanaşı, çoxəsrlik regional idarəçilik ənənələrinin davamı və naxçıvanlıların doğma diyarı Azərbaycanın tərkib hissəsi kimi qoruması uğrunda mübarizəsinin məntiqi nəticəsi olmuşdur. Bu mənada naxçıvanlılar təkcə hərb sahəsində deyil, diplomatik sahədə də ciddi mübarizə aparmışlar. Muxtariyyətin qazanılması ərəfəsində və qazanıldığı dövrdə Naxçıvandan olan diplomatların fəaliyyətini öyrənmək həm Vətən tarixinin həm də diplomatiya tariximizin mühüm problemlərindəndir. Məqalədə bu istiqamətdə Əli Səbri Qasımov, Behbud ağa Şahtaxtınski, Qasım bəy Camalbəyov, Balabəy Əlibəyov, Əziz Şərif və başqaları kimi diplomatların fəaliyyəti təsvir edilir.

***

***Naxçıvan Teatrında tərcümə əsərlərinin tamaşaları (1883-2013) /Qasımov Ələkbər.- Bakı, Xəzər Universiteti, 2016.- 176 s.***

Monoqrafiyada Naxçıvan Dövlət Musiqili Dram Teatrının 130 illik tarixi ərzində burada tamaşaya qoyulmuş tərcümə əsərlərinin səhnə təcəssümü ilk dəfə

olaraq sistemləşdirilmiş şəkildə tədqiq olunmuş, eləcə də bir sıra tamaşaların timsalında müfəssəl təhlili verilmişdir.

***

***"Kitabi-Dədə Qorqud" və Naxçıvan:qarşılaşdırmalı etnoqrafik motivlər / Qədirzadə Hacı Qadir.- Naxçıvan Əcəmi NPB, 2016.- 128 s.***

Monoqrafiyada "Kitabi-Dədə Qorqud" boylarında adətlər, inanclar, ailə-məişət münasibətləri, onların Naxçıvan paralellərindən, "Bilqamıs" dastanı, həmçinin digər türk xalqları ilə ortaq cəhətlərdən bəhs edilir.

***

***Şıxəliyev E. Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna verilən beynəlxalq təminatdır/Emin Şıxəliyev// ”Şərq qapısı” qəzeti.-2016-13 oktyabr.- s. 2.***

Məqalədə Qars müqaviləsi və bu müqavilənin tarixi əhəmiyyəti, Ermənistanın bu müqavilə ilə Naxçıvanı qeyd-şərtsiz Azərbaycan torpağı kimi qəbul etməsi və erməni ekspansionizminin qarşısına sədd çəkməsindən bəhs edilmişdir.

***

## 2017

***Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasında milli-mənəvi dəyərlər məsələsi /Əkbərov Qadir.- Naxçıvan Əcəmi NPB, 2017.- 208 s.***

Monoqrafiyada Ümummilli lider Heydər Əliyevin Naxçıvan MR-də milli-mənəvi dəyərlərin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması sahəsində həyata keçirdiyi tədbirlərdən, həmçinin Ulu öndər tərəfindən milli-mənəvi dəyərlərlə əlaqədar hazırlanmış siyasi kursun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsindən bəhs edir.

***

***"Dədə-Qorqud yurdu-Naxçıvan" tarixi-coğrafi və etnoqrafk Atlas. / Hacıyev İsmayıl (tərtib edən), Səfərli Fəxrəddin (tərtib edən), Quliyev Əbülfəz (tərtib edən).- Naxçıvan Əcəmi NPB, 2017.- 436 s.***

Atlas Naxçıvan Muxtar Respublikasının Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz rayonlarında, həmçinin Naxçıvan şəhərində müxtəlif kənd, dağ, qədim yaşayış yerləri, düzənliklər, qala, bulaq, dərə, mağara, müxtəlif əşyalar və s. adların "Kitabi-Dədə Qorqud"da adı çəkilən adlarla eyni və ya yaxin olması əsasında tərtib olunmuşdur.

***

## 2018

***2017-ci idə Naxçıvanın arxeoloji tədqiqi / Baxşəliyev Vəli .-Naxçıvan Əcəmi NPB, 2018.- 56 s.***

Kitabda 2017-ci ildə Naxçıvan MR ərazisində yerləşən Naxçıvan təpə, Kültəpə, Uçan ağıl, Qızqala yaşayış yerlərində aparılan arxeoloji tədqiqat işlərinin nəticələri ümumiləşdirilmişdir. Arxeoloji tədqiqatlar Naxçıvanın Eneolit və Tunc dövrü mədəniyyətinin ardıcıl mərhələlərini izləməyə imkan vermiş, Naxçıvan şəhərində məskunlaşmanın 8 min il bundan əvvəl başladığını təsdiq etmişdir.

## 2019

***Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir./İsmayıl Hacıyev//AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2019, № 1, s. 9-17*.**

Məqalədə Naxçıvan Muxtar Respublikasının yaradılmasına qədərki vəziyyət, yaradılması prosesi və sonrakı inkişaf tarixi araşdırılmışdır. Aydın olur ki, 1917-1920-ci illərdə-həm çar Rusiyasının son illərdə, həm də Azərbaycan Xalq Cümhuriyyəti, həm bolşevik Rusiyası dövründə erməni daşnaklarının "böyük Ermənistan" yaratmaq uğrunda mübarizəsində məkrli amillər mühüm yer

tutmuşdur. İlk növbədə çar Rusiyasının yaxından köməyi ilə qədim Azərbaycan torpağı olan İrəvan ərazisində Ermənistan dövləti (Ararat Respublikası) yaradılmışdır. Yenə çar və Bolşevik Rusiyasının, İngiltərə və ABŞ-ın yardımı ilə onun ərazisi genişləndirilmişdir. Bunun qarşısını almaq üçün Naxçıvan əhalisi, Osmanlı dövləti mübarizə aparmalı olmuşdur. Behbud ağa Şahtaxtınskinin V.İ.Leninə yazdığı məktub və telegramlar, Türkiyənin Rusiya ilə apardığı danışıqlar erməni məkrinin qarşısını almışdır. 1921-ci ilin yanvarında Naxçıvanın Azərbaycanın tərkibində qalması ilə bağlı referendum keçirilmiş və əhalinin 90 faizindən çoxu bunun lehinə səs vermişdir. 1921-ci ilin mart və oktyabr aylarında Moskva və Qars beynəlxalq müqavilələri ilə Naxçıvan Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmış və Azərbaycan onun üçüncü dövlətə verilməsini öz öhdəsinə götürmüş və bunu təsdiq edən tərəflər (Türkiyə, Azərbaycan və Ermənistan) müəyyən edilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikası yaradılmışdır. Məqalədə Naxçıvan Muxtar Respublikasının hüquqi əsasları da verilmişdir.

## 2020

***Nağıyev K. Müasir mərhələdə Naxçıvan Muxtar Respublikasinda demoqrafik proseslərdə baş verən dəyişikliklər və onlarin dinamikası/Kazım Nağıyev // AMEA Naxçıvan Bölməsinin "Elmi əsərlər"i, 2020, № 3, s. 293-297.***

Məqalədə Naxçıvan Muxtar Respublikasının demoqrafik vəziyyəti araşdırılır və əhalinin, o cümlədən şəhər və kənd əhalisinin sayında baş verən dəyişikliklər, əhalinin doğum, ölüm və təbii artım səviyyəsi, nikah və boşanmaların sayında baş verən dəyişikliklər təhlil edilir. Aparılan təhlillərdən aydın olur ki, Muxtar Respublikada əhalinin sayında müsbət dəyişiklikər baş vermişdir. Əhalinin sayında baş verən bu dəyişikliklər mövcud olan sosial-iqtisadi, milli-mədəni və digər amillərin nəticəsi kimi yaranan demoqrafik inkişaf göstəricilərinin artıb-azalması ilə əlaqədardır.

## 2021

***Bababəyli N., Quluzadə A. Naxçıvan Muxtar Respublikasında dağətəyi ərazilərdə torpaq eroziyasının aerokosmik metodlarla tədqiqi/ Nazim***

***Bababəyli, Aytac Quluzadə//AMEA Naxçıvan Bölməsinin "Elmi əsərlər"i, 2021, № 2, s. 255-259.***

Məqalədə, Naxçıvan Muxtar Respublikası ərazisində geniş yayılmış yarğan eroziyasının ətraf mühitə göstərdiyi təsir, eləcə də onun inkişaf səbəbləri araşdırılmış və aerokosmik metodlarla tədqiqi barədə məlumat verilmişdir. Yüksək dağlıqda torpaq eroziyasına təsir edən əsas faktorlar, otarılma, ot tədarükü, istehkamların qurulması, yolların tikintisi və s amillər qeyd olunmuşdur. Məsafəli metod hər hansı bir ərazidə çöl ekspedisiya işləri aparmadan torpaqların təbii xüsusiyyətləri haqqında məlumat əldə etməyə imkan vermiş olur. Nəticə olaraq muxtar respublika ərazisində çöl tədqiqatlarından fərqli olaraq, aerokosmik tədqiqat metodlarının köməyilə ərazinin təbii xüsusiyyətlərində baş verən dəyişikliklər araşdırılmışdır.

***

***Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər 3-cü kitab/ Xəlilov Fərman.- Naxçıvan Əcəmi NPB, 2021.- 216 s.***

Kitbda Fərman Xəlilovun məqalələri toplanmışdır. "Elm", "Ədəbiyyatşünaslıq", "Mətbuat, maarif və mədəniyyət" bölmələrində qruplaşdırılan məqalələrdə Naxçıvanın elmi, ədəbi və mədəni mühiti ilə bağlı müxtəlif problemlərdən bəhs olunur.

***

***Orucova A. Müstəqillik dövrü hekayə janrında Xocalı dərdi və Qarabağ həsrətinin bədii əksi (Naxçıvan ədəbi mühitində)/Aygün Orucova//AMEA Naxçıvan Bölməsinin "Elmi əsərlər"i, 2021, № 3, s. 156-163.***

Məqalədə XX əsrin sonlarında Azərbaycan xalqının həyatında baş verən soyqırımlar, doğma torpaqlarımızın itirilməsi, müstəqilliyimizin şəhidlərin qanı bahasına əldə olunması, qaçqınlıq, əsirlik və digər hadisələrin insanlarda yaratdığı kədər hissinin, bitib-tükənməyən doğma yurd, el-oba həsrətinin ümumilikdə Azərbaycan ədəbiyyatına olduğu kimi, Naxçıvan ədəbi mühitinə də təsiri araşdırılmışdır. Xocalı soyqırımının insanlıq adına sığmayan vəhşilikləri, Vətənin dilbər guşələrindən olan Dağlıq Qarabağ və onun ətrafındakı

rayonlarımızın erməni-rus hərbi birləşmələri tərəfindən işğalı, insanların bu böyük itkilər səbəbindən keçirdiyi iztirablar bədii dilin imkanları ilə ədəbi yaddaşımıza yazılmışdır. Bu bədii nümunələri birləşdirən ortaq cəhət onların hər birində bir gün mütləq müqəddəs Vətən torpaqlarımıza xalqımızın qayıdacağına inam hissi idi.

## 2023

***Həbibbəyli İ. Qədim diyarın müasir inkişaf konsepsiyası/İsa Həbibbəyli//525-ci qəzet.-2023 21 iyun № 107.- s.10-11.***

Məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında"kı 5 iyun 2023-cü il tarixli Sərəncamı və təsirlərindən bəhs edilmişdir. Qeyd edilmişdir ki, Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafını təmin etmək məqsədi daşıyan Dövlət Proqramı Azərbaycan Rspublikası üzrə müəyyən edilmiş davamlı prioritetlərə uyğun olaraq ölkəmizin 2030-cu il Dayanıqlı inkişaf gündəliyinin hədəfləri ilə əlaqəli şəkildə hazırlanmışdır. Prezident İlham Əliyev tərəfindən imzalanmış "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" muxtar respublikanın Azərbaycanın ümumi inkişaf strategiyası ilə əlaqəli şəkildə yenidən qurulması və inkişaf etdirilməsinin strategiya və taktikasını özündə əks etdirən mühüm tarixi əhəmiyyətə malik olan dövlət sənədidir. Ona görə də yeni Dövlət Proqramı ilə Naxçıvan Muxtar Respublikası ərazi və inzibati cəhətdən olduğu kimi, iqtisadi inkişaf baxımından da Azərbaycanın üzvi tərkib hissəsi kimi fəaliyyətini uğurla davam etdirəcəkdir. Naxçıvanın muxtar respublika kimi fəaliyyət göstərdiyi son yüz il ərzində heç vaxt bu regionun inkişaf etdirilməsinə dair indiki miqyasda dövlət proqramı qəbul edilməmişdir. Bu, regionun geosiyasi və tarixi-coğrafi şəraiti, habelə təbii resursları və iqtisadi imkanları nəzərə alınmaqla, Naxçıvanın Muxtar Respublikasının hərtərəfli müasir inkişafına və gələcək inkişaf perspektivlərinə hesablanmış mühüm əhəmiyyətə malik birinci sanballı dövlət proqramıdır.

***

***Qəhrəmanova A. Naxçıvan Muxtar Respublikasında kənd əhalisinə göstərilən ticarət və ictimai iaşə xidməti/ Aytəkin Qəhrəmanova//AMEA Naxçıvan Bölməsinin "Elmi əsərlər"i, 2023, № 1, s. 85-92.***

Məqalədə Naxçıvan Muxtar Respublikasının kənd əhalisinə göstərilən xidmət mərkəzlərinin və ictimai iaşə müəssisələrinin yaranması və onların kənd əhalisinə göstərdiyi xidmətlərdən bəhs edilmişdir. Aparılan araşdırmalar onu deməyə əsas verir ki, müstəqillik illərində kənd yerlərində yeni infrastrukturların yaranması və əhaliyə göstərilən müxtəlif iaşə xidmətlərinin günün tələbləri səviyyəsində qurulması kənd əhalisinin uzaq məsafə qət etmədən, əlavə xərc çəkmədən və vaxt itirmədən gündəlik zəruri tələbatlarını ödənilməsində, kənd əhalisinin ailə təsərrüfatlarında istehsal olunan məhsulların satışında, bununla yanaşı, əhalinin məşğulluğunun təmin edilməsində müəyyən rol oynayır.

## 2024

***İbrahimov A. Naxçıvan SSRİ-nin tərkibindən necə ayrıldı: 19 yanvar 1990-ci il-sonun başlanğıcı/Anar İbrahimov//"Şərq qapısı" qəzeti.-2024, 21 yanvar.-s 6.***

Məqalədə 34 il əvvəl, Naxçıvanın Sovet İttifaqının tərkibindən necə ayrılmasından bəhs edilmişdir. İl yarımdan sonra 1991-ci ilin sentyabrında Baltikyanı ölkələr müstəqilliyə qovuşa bildilər, həmin ilin sonunda isə Sovet İttifaqının özü dağıldı. Qeyd edilmişdir ki, Naxçıvan MSSR Ali Sovetinin (ozamankı parlament) fövqəladə sessiyasında 19 yanvar 1990-cı il axşam saatlarında muxtariyyət Konstitusiyasının 81-ci maddəsinə əsaslanaraq (SSRİ-nin Azərbaycanın və Naxçıvanın suverenliyinin və ərazi bütövlüyünün müdafiə etmək öhdəliklərinə əməl etməməsi və 1921-ci il çoxtərəfli Qars müqaviləsi şərtlərinin pozulması səbəblərindən) SSRİ-nin tərkibindən ayrılması barədə Qərar qəbul etdi. Parlamentin bu Qərarı ilə Naxçıvan müstəqil respublika elan olundu.

***Məmmədov M. Naxçıvan qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf edib/ Muxtar Məmmədov//"Şərq qapısı" qəzeti.-2024, 21 yanvar .-s.1.***

Məqalədə tarixin bütün dönəmlərində qoca Şərqin qapısında məğrur dayanan, bir neçə dövlətlə həmsərhəd olan Naxçıvanın öz tarixi keçmişi, yeraltı və yerüstü sərvətləri, muxtariyyət statusu aldıqdan sonrakı dövr, iqtisadi irəliləyişindən geniş bəhs edilmişdir. Qeyd edilir ki, bu gün blokada şəraitində olmasına baxmayaraq, qurub-yaradan, inamla irəli addımlayan qədim yurd yerimiz özünün yeni inkişaf mərhələsini yaşayır. Azərbaycan dövlətçiliyinin intişar tapdığı, son illərdə keçdiyi sürətli inkişaf yolu ilə, doğrudan da, dövlətçiliyin beşiyi olduğunu sübut edib. Ölkəmizin müstəqilliyi üçün taleyüklü məsələlərin bu diyarda öz həllini tapması bu gün çoxlarına asan görünə bilər. Ancaq Azərbaycanın uçuruma sürüklənmək ərəfəsində olduğu bir vaxtda həmin məsələlərin həll olunması böyük cürət tələb edirdi. Naxçıvanın bugünkü mənzərəsinin təməlində məhz o dövrdə atılan addımlar dayanır. Naxçıvanda milli ruhun, milli şüurun daşıyıcısı olan Azərbaycançılıq ideologiyası həmişə sədaqətlə yaşadılıb. Bu sadiqlik naxçıvanlılara həyatın bütün sahələrində uğurlar gətirib. Çətinliklərə sinə gərərək qurub-yaradıblar. Dünəni yaşatmaqla bugünkü Naxçıvana sahib olublar. Bugünkü Naxçıvan isə Ulu Öndərin arzuladığı Naxçıvandır. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabrda imzalanmış "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam isə Naxçıvana daha böyük uğurlar vəd edir.